TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri

____________ E. M. Ağayev

"05" iyun 2015-ci il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

*Dərman vasitəsini istifadə etməzdən əvvəl bu içlik vərəqəni diqqətlə oxuyun.*
*İçlik vərəqəni saxlayın, ola bilsin ki, Sizə onu yenidən oxumaq lazım olacaq.*
*Əlavə məlumat və ya məsləhəti Siz həkiminizdən və ya əczaçınızdan ala bilər-siniz.*

**TİROZUR** yerli istifadə üçün gel
TIROZUR

**Tərkibi**
*Təsiredici maddə:* 1 q gelin tərkibində 1 mq tirotrisin vardır.
*Köməkçi maddələr:* setilpiridin xlorid, propilenqlikol, etanol 96 %, karbomer, trometamol, təmizlənmiş su

**Farmakoterapevtik qrupu**
Yerli istifadə üçün antibiotiklər.

**İstifadəsinə göstərişlər**
Cüzi miqdarda ekssudatın ifrazatı və tirotrisinə qarşı həssas patogen mikro-orqanizmlərin səbəb olduğu superinfeksiya ilə müşahidə olunan səthi yaralar

**Əks göstərişlər**
Preparatın komponentlərinə qarşı yüksək həssaslıq.

**Digər dərman vasitələri ilə qarşılıqlı təsiri**
Bu vaxta qədər məlum deyil.
Əgər siz hal-hazırda digər dərman vasitələrindən istifadə edirsinizsə və ya yaxın zamanlara qədər istifadə etmisinizsə, mütləq bu barədə müalicə həkiminə məlumat verin.

**Xüsusi göstərişlər və ehtiyat tədbirləri**
Gözətrafı nahiyədə istifadə edən zaman diqqətli olmaq lazımdır, çünki bu yanma hissi yarada bilər. Tirozur gelinin tərkibində dərinin qıcıqlanmasına səbəb ola biləcək polietilen qlikol vardır.

İntranazal istifadə üçün nəzərdə tutulmamışdır; bunun, iybilmə qabiliyyətinin pozulmasına gətirib çıxarması barədə məlumatlar vardır.
Tirozur gelini digər dərman preparatları kimi hamiləlik və laktasiya dövründə həkimlə məsləhətləşdikdən sonra və gözlənilən müsbət təsir və mümkün risk nisbətinin obyektiv şəkildə dəyərləndirilməsindən sonra tətbiq etmək lazımdır.
Zərurət yarandığı təqdirdə Tirozur gelini istənilən yaşda uşaqlarda istifadə etmək olar.